G.A.ƏZİZOVA
müəllim
e-mail: azizovagun@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

:10.62021/0026-0028.2024.2.029

MÜASİR DÖVRDƏ TƏRCÜMƏÇİ ÜÇÜN ÇƏTİNLİK YARADAN MƏSƏLƏLƏR

Xülasə. *Bu elmi-tədqiqat işində müasir dövrümüzdə tərcümə zamanı tərcüməçilərin rastlaşa biləcəyi çətinliklər və yaranmış çətinlikləri aradan qaldırmaq üçün istifadə olunan metod və üsullardan bəhs edilir. Hər bir tərcümə sahəsinin, istər siyasi, istər ədəbi-bədii, istərsə də, elmi tərcümənin özünəməxsus səciyyəvi xüsusiyyətləri və çətinlikləri vardır. Bu elmi tədqiqat işi məhz bu məsələləri araşdırır və tədqiq edir. Elmi tədqiqat işində müasir dövrümüzdə tərcüməçilərin üzləşə biləcəyi çətinliklər ilk növbədə a) qrammatik, b) müxtəlif mədəniyyətlərə xas olan xüsusiyyətlər və c) bədii tərcümə zamanı meydana çıxan problemlər şəklində təsnif olunaraq araşdırılıb tədqiq olunmuşdur və nümunələr əsasında onları həll edə biləcək metod və texnikalar göstərilmişdir.*

Açar sözlər: *tərcümə, qrammatik çətinliklər, frazeoloji birləşmələr, mədəniyyət, poetik tərcümə*

Hər bir tərcümə sahəsinin, istər siyasi, istər ədəbi-bədii, istərsə də, elmi tərcümənin özünəməxsus səciyyəvi xüsusiyyətləri və çətinlikləri vardır. Bu elmi tədqiqat işi məhz bu çətinlikləri araşdırır və tədqiq edir.

Elm və texnikanın daim inkişaf etdiyi, dünya ölkələrinin və xalqların inteqrasiyanın sürətlə getdiyi bir dövrdə ölkə mədəniyyətlərinin daha da yaxınlaşması, elmi ixtiraların və yeniliklərin öyrənilməsində tərcümənin rolu əvəzsizdir. Bütün bunları nəzərə alsaq, deyə bilərik ki, tərcümənin daha dəqiq və detallı çatdırılması üçün bu mövzunun araşdırılmasına böyük ehtiyac duyulduğunu görmüş olarıq və bu səbəbdən bugün bu tədqiqat işi aktualdır və bu mövzunun Azərbaycan-ingilis dillərində qarşılıqlı müqayisə və təhlilinin aparılması zəruridir.

Tədqiqat işinin başlıca məqsədi müasir dövrümüzdə ingilis dilinə tərcüməsi zamanı çətinlik yaradan bədii ifadə vasitələri, terminlər, frazeoloji birləşmələr, atalar sözlərindən nümunələrə nəzər salaraq onların Azərbaycan dilinə müqayisəli tərcüməsini vermək, uyğun ekvivalentini tapmaq və bu zaman istifadə olunan üsullara nəzər salmaq, bu yolla tərcüməçilərin işini asanlaşdırmaq və nümunələr gətirilərək mümkün tərcümə metodlarını araşdırmaqdan ibarətdir.

Yuxarıda qeyd olunmuş məqamlarla yanaşı, məqsəd həm də ədəbi-bədii tərcümədə və danışıq dilində işlənən ifadələrin hədəf dilə tərcüməsi zamanı yaranmış çətinlikləri müəyyənləşdirmək, onların aradan qaldırılması yollarını araşdırmaq və bununla bağlı təkliflər irəli sürməkdir. Bu elmi-tədqiqat işində göstərilən metod və üsullardan istifadə etməklə tərcüməçilərə tərcümə işində yardım göstərmək, bəzi məqamları onlar üçün aydınlaşdırmaq və gələcəkdə yaranacaq çətin məqamları aradan qaldırmaq müəllifin əsas məqsədlərindən biridir.

Müasir dövrümüzdə bir çox tədqiqatçılar tərcümə zamanı ən çox rast gəldiyimiz çətinlikləri aşağıdakı şəkildə təsnif edirlər;

1) qrammatik çətinliklər, 2) mədəni xüsusiyyətləri ilə bağlı ortaya çıxan çətinliklər, 3) ədəbi-bədii tərcümə zamanı yaranan çətinliklər.

Qrammatik çətinliklərə a) sintaktik strukturla bağlı olan çətinliklər; b) frazeoloji birləşmələrin və idiomatik ifadələrin tərcüməsi zamanı yaranan problemlər; c) yaxın mənalı sözlərin və omonimlərin tərcüməsi zamanı qarşılaşdığımız problemlər olaraq qruplaşdıra bilərik. Bunların hər birinə ayrı-ayrılıqda nəzər salıb çətinlik yaradan məsələləri gözdən keçirək.

Bildiyimiz kimi, hər bir dilin özünəməxsus sintaktik quruluşu vardır; bir çox dillərdə cümlələr geniş və müxtəsər, quruluşca sadə və mürəkkəb, cüttərkibli və təktərkibli, məqsəd və intonasiyaya görə isə əmr, nida, nəqli və sual cümlələri olmaqla bir neçə yerə bölünür və dildən-dilə tərcümə edərkən tərcüməçi cümlənin sintaktik quruluşu ilə əlaqədar problemlərlə qarşılaşa bilər. İ.İ.Meşaninovun [11] təsnifatına əsasən Azərbaycan dili və ingilis dili hər ikisi sintaktik strukturuna görə nominativ dil quruluşuna malikdir, J.Qrinberqə [9] görə isə, ingilis dili mübtəda + xəbər + tamamlıq, Azərbaycan dili isə mübtəda + tamamlıq + xəbər strukturlu dil qruplarına aiddir. Məsələn, Azərbaycan dilindən ingilis dilinə sinxron tərcümə edən tərcüməçi mübtədadan sonra xəbəri tərcümə etməli olduğu üçün Azərbaycan dilində cümləni sona qədər dinləməlidir, çünki bu dildə xəbər cümlənin sonunda işlənir. Nümunəyə nəzər salaq,

Bu ilin sonunadək biz (müb.) Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qazı alacağını gözləyirik (xəb.) [19].

By the end of this year, we (müb.) expect (xəb.) more EU member countries to start receiving natural gas from Azerbaijan.

Frazeoloji birləşmələrin və idiomatik ifadələrin tərcüməsi zamanı qarşılaşdığımız çətinliklərdən bəhs edərkən qeyd etməliyik ki, hər dilin özünəməxsus müxtəlif ifadə vasitələri və frazeoloji birləşmələri vardır və onların tərcüməsi həmin dil daşıycılarının inkişaf tarixi, ədəbiyyatı, mədəniyyəti və dini ilə sıx əlaqədardır. Bu kimi birləşmələrin tərcüməsi zamanı hədəf dildə ekvivalentin tapılması, uyğun analoqun seçilməsi, bəzən də izah və təsvirin verilməsi metodlarından istifadə olunur.

Məsələn: Bir çox frazeoloji birləşmələrin tərcüməsi analoqun seçilməsi yolu ilə həyata keçirilir. Linqvistikada frazeoloji analoq dedikdə, ifadələrin tərkib hissələrinin leksik, qrammatik struktur, ifadəlilik baxımından fərqli olsa da, eyni mənanı kəsb etməsi başa düşülür. Məsələn: *feel like a wet rag – çox yorğun hiss etmək*. Verilmiş frazeoloji birləşmənin tərcüməsini onun işləndiyi mənbəni öyrənmədən bilmək mümkün deyil. Bunun üçün ya lüğətdən istifadə olunmalı, ya da işləndiyi ilk mənbəni öyrənmək vacibdir.

Tərcümə zamanı qrammatik çətinliklərdən danışarkən, yaxın mənalı sözlərin və omonimlərin yaratdığı problemlərdən bəhs edə bilərik. Bir sözün qarşı dildə bir neçə tərcüməsi, leksik mənası ola bilər. Məsələn, ingilis dilində *match* sözünün bir neçə mənası vardır: 1) uyğun olmaq, yaraşmaq 2) kibrit 3) yarış 4) tayı, bərabəri. Omonim olan bu sözlərin tərcüməsini düzgün etmək üçün tərcüməçi bu sözün bütün mənalarından xəbərdar olmalı, geniş söz ehtiyatına malik olmalıdır. Digər nümunəyə nəzər salaq: *handsome* və *beautiful* sözlərinin Azərbaycan dilinə tərcüməsi *gözəl, qəşəng, yaraşıqlı* kimi verilə bilər, lakin *handsome* qadın haqqında işlədilməsi düzgün olmadığı kimi, *beautiful* sözünü də kişi haqqında işlətmək düzgün deyil.

Ölkələrin mədəniyyəti ilə bağlı ortaya çıxan çətinlikləri aşağıdakı kimi təsnif edə bilərik: a) bir sıra mədəniyyətlər üçün xas olan sözlər, b) məsəllər və atalar sözləri, c) müəyyən sahələr üçün xarakterik olan termin və ifadələr, d) danışıq ifadələri, slenqlər və yumorların tərcüməsi zamanı yaranan problemlər.

Mədəniyyətlər üçün xas olan sözlərdən danışarkən toponim və yer adlarının yer aldığı ifadələrdən, (*a Dutch bargain – birinin daha çox faydalandığı sövdələşmə)* hər hansı bir region üçün səciyyəvi olan mədəniyyət, din və adət və ənənələrin yer aldığı ifadə və sözlərin (*Adam's ale – adi su)*, ifadənin tərkib hissənin birinin xüsusi ad olduğu birləşmələr (*Jack the Lad – məsuliyyətsiz gənc)*, rəvayət, əfsanə və ədəbiyyat nümunələrindən qaynaqlanan birləşmələrin tərcüməsi (*Achilles' heels – zəif nöqtə, cəhət)* kimi məsələlər zaman-zaman tərcümədə çətinlik törədə bilər. Məsələn, *Forbidden fruit* frazeoloji birləşməsi dinlə əlaqələndirilərək Adəmin meyvə yeməsinin qadağan olunduğu dini rəvayətlərdən irəli gəlir, tərcüməsi dilimizdəki ekvivalenti *qadağan olunmuş meyvə* kimi verilə bilər.

İngilis dilində işlənən 200-dən çox atalar sözləri və məsəllərin Azərbaycan dilində ekvivalenti və analoqu olduğu halda, qalan məsəllərin və aforizmlərin tərcüməsi üçün izaha ehti-

yac duyulur ki, bu da eyni ilə frazeoloji birləşmələrdə olduğu kimi çox zaman toponimlər, müəyyən region üçün səciyyəvi olan dini adət-ənənələrdən, toponimlərdən, ədəbiyyat nümunələrindən qaynaqlanan atalar sözlərinin tərcüməsində çətinliklər yaradır. Məsələn, Azərbaycan dilində *Araz aşığındandır, Kür topuğundan* atalar sözünü tərcümə edərkən *Araz və Kür* çay adları digər dil daşıyıcısına aydın olmaya bilər, ona görə bu kimi atalar sözlərinin tərcüməsini edərkən izaha ehtiyac duyulur. *Aşıq gördüyünü çağırar* atalar sözündə *aşıq* sözü türkdilli xalqlara məxsus sözdür və onun mənasını anlamaq bu mədəniyyətdən xəbərdar olmayan insanlar üçün problemli ola bilər, buna görə də tərcümə zamanı izah və təsvirə ehtiyac duyulur. İngilis dilində *Even Homer sometimes nods* atalar sözünün anlaşılması üçün onun yaranma tarixçəsinə nəzər salmaq lazımdır. Bildiyimiz kimi, Homer yunan əsilli mütəfəkkirdi. 14-cü əsrin sonlarında romalı şair Horrisin *"I'm aggrieved when sometimes even excellent Homer nods"*[3] deməsindən sonra yaranıb və mənası *"Hətta dahi insanlar belə səhv edə bilər"* kimi başa düşülür.

Poetik tərcümə hər zaman tərcümə növləri arasında ən çox diqqət tələb edən və zaman aparan növlərdən biri olmuşdur. Bədii tərcümədə əsas diqqət daha çox düzgün ədəbi ifadələrin seçilməsinə və fikrin dəqiq çatdırılmasına yönəldilirsə, poetik tərcümədə bu xüsusiyyətlərlə yanaşı həm də şeirin mənasının düzgün çatdırılması, qafiyə sisteminin uyğunlaşdırılması və şeirin ahəngli və oxunaqlı səslənməsinə də xüsusi əhəmiyyət verilir. Bu cür tərcümələrdə aşağıda göstərilən faktorlar öz təsirini göstərir.

1. Linqvistik və mədəni-tarixi, ədəbi və estetik faktorlar poeziyanın tərcüməsində böyük rol oynayır.

2. Şeirdə gözəllik kiçik hekayələrdə və poemalarda olduğu kimi yalnız obrazlı ifadə və düzgün söz seçimi etməklə deyil, həm də gündəlik nitqimizdə istifadə etmədiyimiz ritm, qafiyə, metrika və xüsusi ifadə və quruluşlardan isifadə etməklə əldə olunur.

3. Tərcüməyə təkcə bədiilik verməklə onu şeir formasına salmaq mümkün deyil. Ola bilər ki, şeirin ahəngi, musiqisi qorunub saxlanılsın, ancaq həm məna, həm də qafiyəni orijinalda olduğu kimi çox nadir hallarda qoruyub saxlamaq mümkün olur.

Qədim zamanlardan başlayaraq müxtəlif tərcüməçilər və dilçilər poetik tərcüməni daha da asanlaşdırmaq üçün onun yollarını araşdırmışlar. Əslən ingilis olan ədəbi tənqidçi və tərcüməçi John Dryden [14] öz əsərlərindən birində tərcümə tarixi və nəzəriyyəsi ilə məşğul olan hər kəsin bildiyi tərcümə təsnifatını vermişdir.

1. Metafraz. Bu sözbəsöz, hərfi tərcümə deməkdir.

2. Parafraz. Tərcüməçi orijinala tam yaxındır, amma sözə deyil, mənaya daha çox diqqət yetirir.

3. İmitasiya. Tərcüməçi mənanı da nəzərə alaraq sərbəst şəkildə və mətnin-tərcümənin oxucuya xoş gəlməsi baxımından hərəkət edir, orijinala bənzəyir.

Məsələn, Əliağa Vahidin bir beytinə müəllifin tərcüməsində baxaq.

Azadəliyi, sülhü sevirlər bizim ellər, [15]
Bir yerdə ki, sülh olsa, o yerdə zərər olmaz.

İngilis dilində tərcüməsi:

The slogan of our lands-freedom and peace,
With an everlasting peace, no danger exists.

Yuxarıda verilmiş sətirlərin tərcüməsində parafraz metodundan istifadə olunmuşdur.

İşin elmi nəticəsi: Nəticə etibarilə ingilis dili beynəlxalq ünsiyyət dili olduğu üçün bu dilin daha mükəmməl səviyyədə mənimsənilməsinə və bu sahədə mütəxəssislərin və peşəkar tərcümanların yetişdirilməsinə ehtiyac vardır. Bu elmi tədqiqat işi müxtəlif sahələrə aid tərcümə işlərində rastlana biləcək çətinlikləri araşdırır və bu çətinliklərin aradan qaldırılması üçün müəyyən üsul və metodları tədqiq edir və öyrənir.

İşin elmi yeniliyi: Bu elmi tədqiqat işində müasir dövrümüzdə tərcüməçilər üçün yaranan çətinliklər araşdırılaraq a) qrammatik çətinliklər, b) müxtəlif dillərə xas mədəni xüsusiy-

yətlər ilə bağlı ortaya çıxan çətinliklər, c) ədəbi-bədii tərcümə zamanı yaranan çətinliklər şəklində təsnif olunmuş və xarakterik xüsusiyyətləri tədqiq olunmuşdur. Həmçinin, tədqiqat işində müxtəlif tərcümə sahələri – iqtisadi, siyasi, məhkəmə-hüquq sistemi, elmi-texniki, ədəbi-bədii sahələrdə və danışıq dilində tərcümanların üzləşdiyi problemlər araşdırılmış, nümunələr gətirilmiş və həll yolları təklif olunmuşdur.

İşin tətbiqi əhəmiyyəti: Yuxarıda verilmiş təsnifata və tərcümə metod və üsullarına əsaslanaraq Azərbaycan-ingilis dillərində aparılan müqayisəli tədqiqat göstərir ki, tərcümanın iqtisadi, siyasi, məhkəmə-hüquq sistemi, elmi-texniki, ədəbi-bədii sahələrdə və danışıq dilində tərcümələr edərkən alliterasiya, ümumiləşdirmə, konkretləşdirmə, kalka üsulu, transformasiya, transpozisiya və ya metafraz, parafraz, imitasiya və s. kimi uyğun tərcümə üsullardan istifadə edə bilmə bacarığı onun işini kifayət qədər asanlaşdıra və keyfiyyətli tərcümə işi ərsəyə gətirməyə yardımçı ola bilər.

Ədəbiyyat

1. Abbasov, A.Q. English proverbs and sayings / A.Q.Abbasov. − Bakı, −2013.
2. Əhmədov, Q. İngiliscə qanadlı ifadələr / Q.Əhmədov, − Bakı, −1999.
3. Qurbanov, A. Müasir Azərbaycan ədəbi dili, I cild / A.Qurbanov, − 2003.
4. Həsənova, V. Müxtəlif sistemli dillərdə frazeologizmlərin tipoloji ekvivalentliyi / V.Həsənova. − 2015.
5. İsaxanlı, H. Poetik tərcümələr, I toplu / H.İsaxanlı, − 2005.
6. Abdullayeva, F., Peşəkar tərcümənin əsasları / F.Abdullayeva, − Bakı, − 2010.

Rus dilində ədəbiyyat

7. Англо-русский фразеологический словарь, Кунин А.В. −1984.
8. Крупнов, В.Н. Практикум по переводу с английского языка на русский / В.Н.Крупнов.
9. Гринберг, Дж. Антропологическая лингвистика. Вводный курс. Перевод с английского / Дж.Гринберг. − 2004.
10. Кузьмин, С.С., Перевод русских фразеологизмов на английский язык, −1977.
11. Мещанинов, И.И. Новое учение о языке. Стадиальная типология / И.И.Мещанинов, − 1936.

İngilis dilində ədəbiyyat

12. S. Hussein, Common Problems in Translation of Political Texts, − 2021.
13. Stoyanovic, I. Topics in Philosohy of Languages / I.Stoyanovic, − 2011.
14. Dryden, J. On Translation. In: Theories of Translation / J. Dryden.

İnternet resursları

15. www.archive.org
16. www.collinsdictionary.com
17. www.echr.coe.int/documents/d/echr/convention_ENG
18. www.oqtayismayil.wordpress.com
19. www.president.az
20. www.azertag.az

G.A.Azizova

Challenges for Translators in the Modern World

Summary

In this scientific research work, the difficulties that translators may encounter during translation in our modern era and the methods and techniques used to overcome these difficulties are discussed. Each field of translation – political, poetic, or scientific translation, has its own specific features and difficulties. This scientific research paper examines and investigates exactly these issues. In the scientific research work, the difficulties that translators may face in our modern times have been classified and

classified as a) grammatical, b) characteristics specific to different cultures and c) problems that arise during literary translation, and the methods and techniques that can solve them have been shown on the basis of examples.

Key words: *translation, grammatical difficulties, phraseological units, culture, poetic translation*

Г.А.Азизова

Сложности, возникающие у переводчиков в современное время

Резюме

В данной научно-исследовательской работе рассматриваются методы и способы, используемые для преодоления возникших сложностей, с которыми сталкиваются переводчики при переводе в современную эпоху.

Каждая сфера перевода, будь то политического, литературно-художественного или научного, имеет свои сложности и особенности. Данная научно-исследовательская работа изучает и исследует именно эти вопросы.

В научно-исследовательской работе в первую очередь рассмотрены и изучены сложности, с которыми в современное время могут столкнуться переводчики, классифицированные как: а) грамматические; б) особенности, характерные для разных культур; и в) проблемы, возникающие при художественном переводе, а также были указаны методы и техника, при помощи которых можно их устранить.

Ключевые слова: *перевод, грамматические трудности, фразеологические сочетания, культура, поэтический перевод*

Rəyçi: f.f.d. G.S.Səlimova

Redaksiyaya daxil olub: 15.05.2024